Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 1 ” aprel tarixli
94 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə**
**MEYARLAR**

## 1. Ümumi müddəalar

1.1. “Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar” (bundan sonra – Meyarlar) “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 43-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq hazırlanmışdır və uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin təşkilinə və onların həyata keçirilməsinə nəzarət üzrə meyarları müəyyən edir.

1.2. Bu Meyarlara dair məlumatlar aşağıdakı sahələr üzrə Meyarlarda göstərilən dövlət orqanları (qurumları) tərəfindən onların Azərbaycan Respublikasının qanunları əsasında müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq hazırlanır:

1.2.1. təhsil, tərbiyə və asudə vaxtın təşkili;
1.2.2. sağlamlığın mühafizəsi;
1.2.3. sosial müdafiə;
1.2.4. alternativ qayğı;
1.2.5. uşaqların təhlükəsizliyinin təmini;
1.2.6. cinayət törətmiş uşaqların islah olunması.

## 2. Uşaq hüquqlarının həyata keçirilməsinin təhsil, təlim-tərbiyə və asudə vaxtın təşkili sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar

2.1. Uşaq hüquqlarının həyata keçirilməsinin təhsil, təlim-tərbiyə və asudə vaxtın təşkili sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar aşağıdakılardır:

2.1.1. təhsil, təlim-tərbiyə və asudə vaxtın təşkili ilə bağlı qanunvericiliyin BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasına uyğunlaşdırılması üzrə görülən tədbirlər (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

2.1.2. təhsil müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarətinin həyata keçirilməsi üzrə tədbirlər (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.3. məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlb edilməsi və təhsildən yayınmanın qarşısının alınması üzrə tədbirlər (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.4. məktəbəqədər, ümumi təhsil və peşə təhsili üzrə məlumatların (təhsil müəssisələrinin ünvanları, əlaqə vasitələri) Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin rəsmi informasiya resurslarında yerləşdirilməsi (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.5. təhsilverənlərin uşaq hüquqları sahəsində təlimləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.6. təhsilin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.7. təhsildə korrupsiya hallarına qarşı mübarizə məqsədilə həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.8. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların təhsilə cəlb edilməsi üzrə tədbirlər (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.9. sağlamlıq imkanları məhdud olan şəxslərin təhsilinin təşkili, xüsusi təhsilə cəlb edilmə üzrə tədbirlər (belə şəxslərin sayı) (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.10. təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsinə dair məlumatlar (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.11. əlilliyi olan uşaqların cəmiyyətə adaptasiyası və inkişafının təmin edilməsi məqsədilə aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi:

2.1.11.1. yay düşərgələrinin təşkili (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi);

2.1.11.2. peşə təhsilinin və peşə hazırlığının təşkili (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

2.1.11.3. ölkə və beynəlxalq idman yarışları, o cümlədən paralimpiya, deflimpiya və xüsusi olimpiya oyunlarında iştirakın təmin edilməsi, habelə iştirak etmiş uşaqların sayı və əldə etdikləri nəticələr (Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

2.1.11.4. əlilliyi olan uşaqların asudə vaxtlarının səmərəli təşkilinin təmin edilməsi və sağlamlıq imkanları məhdud uşaqların arasından istedadlıların aşkarlanması (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi);

2.1.12. ümumi təhsilə cəlb edilmiş, eləcə də peşə təhsili müəssisələrinə qəbul edilənlərin sayının təhsil müəssisələrini bitirənlərin sayına olan nisbəti və təhsil müəssisələrini vaxtından əvvəl tərk edənlərin faizlə payı (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.13. inzibati ərazi bölgüsünə uyğun olaraq ümumi təhsil müəssisələrində müəllimlərin sayının şagirdlərin sayına olan nisbətinin orta göstəricisi (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.14. məktəbəqədər təhsilə cəlb edilmiş uşaqların ümumi məktəbəqədər yaşlı uşaqlara faizlə nisbəti (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.15. uşaqların idman, mədəni və yaradıcı işlərinin təşkilinə ayrılan resurslar (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi);

2.1.16. aşkar edilmiş istedadlı uşaqların sayı, onların təhsilini davam etdirməsi üçün görülən tədbirlər (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.17. təhsil müəssisələrində bədən tərbiyəsi dərslərinin və idman məşğələlərinin yüksək səviyyədə keçirilməsinin təmini, təhsil alanların üzməyi öyrənməsi, müvafiq idman normativlərini yerinə yetirə bilməsi üçün şərait yaradılması üzrə görülən tədbirlər (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

2.1.18. uşaq-gənclər idmanının təşkili və inkişafı, bədən tərbiyəsi və idman sahəsində məktəbdənkənar təhsil müəssisələri şəbəkəsinin inkişafı üzrə görülən tədbirlər (Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

2.1.19. uşaqların asudə vaxtının təşkili üzrə yaradılan ödənişsiz imkanlar (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi);

2.1.20. mədəniyyət müəssisələri tərəfindən uşaqlar üçün göstərilən xidmətlər barədə ictimaiyyətin məlumatlandırılması (Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi);

2.1.21. uşaqların asudə vaxtının təşkili üzrə resursların hər bir regionun xüsusiyyətləri nəzərə alınmaqla bölgüsü (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi);

2.1.22. uşaq kitabxanaları ilə bağlı statistik məlumatlar (Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi);

2.1.23. uşaqlar arasındakı münasibətlərdə qeyri-zorakı davranışın, sülh və tolerantlıq dəyərlərinin təbliği məqsədilə maarifləndirmə işinin təşkili (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi);

2.1.24. təhsil müəssisələrində, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, uşaqların işlədikləri müəssisələrdə, təşkilatlarda və idarələrdə onlar arasında tərbiyə işinin təşkilinin monitorinqinin nəticələri (uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar).

## 3. Uşaq hüquqlarının həyata keçirilməsinin sağlamlığın mühafizəsi sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar

3.1 Uşaq hüquqlarının həyata keçirilməsinin sağlamlığın mühafizəsi sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar aşağıdakılardır:

3.1.1. sağlamlığın mühafizəsi ilə bağlı qanunvericiliyin BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasına uyğunlaşdırılması üzrə görülən tədbirlər (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Azərbaycan

Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi);

3.1.2. uşaqların ilkin tibbi-sanitariya yardımından istifadəsi üçün bərabər imkanların yaradılması (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.3. məktəbəqədər təhsil müəssisələrində uşaqların sağlamlığına nəzarət tədbirlərinin nəticələri (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.4. tibb müəssisələrinin uşaqlara göstərdiyi tibbi xidmətin keyfiyyətinə, həmin sahədə tibb kadrlarının peşə hazırlığı səviyyəsinə nəzarət tədbirlərinin nəticələri (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.5. tibb işçilərinin uşaqlarla iş sahəsində peşəkarlığının artırılması üzrə həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.6. sağlam həyat tərzi, zərərli vərdişlərdən qorunma və ailə planlaşdırması ilə bağlı valideynlərin və uşaqların maarifləndirilməsi işinin təşkili (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi);

3.1.7. aşağıda qeyd olunan hallarla bağlı məlumatların toplanması və təhlili:

3.1.7.1. ana və uşaq ölümlərinin sayı, onların səbəbləri (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi);

3.1.7.2. yenidoğulmuşlar arasında çəki azlığı olanların sayı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi);

3.1.7.3. yenidoğulmuşların boyu barədə məlumatlar (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi);

3.1.7.4. sanitariya qovşağı olmayan və təmiz içməli su mənbələrindən istifadə imkanından məhrum olan ev təsərrüfatlarının sayı (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi);

3.1.7.5. uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikası üzrə həyata keçirilmiş tədbirlər (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.7.6. doğuşqabağı və doğuşdansonrakı dövrlərdə tibbi xidmətlərdən istifadənin səviyyəsi (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi );

3.1.7.7. evdə doğuşların sayı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.7.8. körpələr arasında ana südü ilə qidalanmanın səviyyəsi (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.7.9. uşaqlar arasında İİV/QİÇS infeksiyasına yoluxma səviyyəsi (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi);

3.1.8. aşağıdakıların təsirinə məruz qalmış yetkinlik yaşına çatmayanların sayı:

3.1.8.1. erkən hamiləlik (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi);

3.1.8.2. cinsi yolla keçən xəstəliklər (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi);

3.1.8.3. psixi xəstəliklər (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi);

3.1.8.4. alkoqollu içkilərin, narkotik vasitələrin və psixotrop maddələrin istifadəsi (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi);

3.1.9. alkoqolizm və ya narkomaniyadan müalicə olunan, o cümlədən məhkəmənin qərarına əsasən məcburi müalicə olunan uşaqların sayı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi);

3.1.10. narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə edən və reabilitasiya olmuş, habelə İİV/QİÇS infeksiyasına yoluxmuş uşaqların sosial stiqmatizasiyaya məruz qalmasının qarşısını almaq məqsədilə qabaqlayıcı tədbirlərin görülməsi (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi);

3.1.11. narkotik vasitələr və psixotrop maddələrdən istifadə edən uşaqlara yönəldilmiş müalicə xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi);

3.1.12. barəsində daxili işlər orqanlarına məlumat verilən cinsi yolla yayılan xəstəliklərə düçar olmuş, habelə əxlaqsızlıqla məşğul olan yetkinlik yaşına çatmayanların sayı və cins tərkibi (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.13. əlilliyi olan uşaqların tibbi-sanitariya yardımlarına çıxış imkanlarının təmin edilməsi (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.14. sanatoriya-kurort putyovkaları (yollayışları) ilə təmin edilən əlilliyi olan uşaqların sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

3.1.15. əlilliyi olan uşaqlar üçün reabilitasiya müəssisələri şəbəkəsinin genişləndirilməsi, onların reabilitasiya infrastrukturuna əlçatanlığının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.16. uşaq doğulanadək cins seçiminin qarşısının alınması istiqamətində görülən tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi);

3.1.17. hamiləliyin süni surətdə pozulmasının yaş qrupları və bölgələr üzrə təsnifatı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi);

3.1.18. uşaq istehlak mallarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin texniki normativ hüquqi aktlara uyğunluğuna nəzarət tədbirlərinin nəticələri (Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi);

3.1.19. uşaq müəssisələrində qida təhlükəsizliyinin təmin olunması vəziyyətinə dövlət nəzarətinin təşkili məqsədilə həyata keçirilən tədbirlərin nəticələri (Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi).

## 4. Uşaq hüquqlarının həyata keçirilməsinin sosial müdafiə sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar

4.1. Uşaq hüquqlarının həyata keçirilməsinin sosial müdafiə sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar aşağıdakılardır:

4.1.1. sosial müdafiə ilə bağlı qanunvericiliyin BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasına uyğunlaşdırılması üzrə görülən tədbirlər (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

4.1.2. hər bir uşağın ayrı-seçkiliyə məruz qalmadan sosial təminat hüququnun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları);

4.1.3. sosial müavinət təyin edilmiş uşaqlara dair statistik göstəricilər (sosial müavinətlərin növləri üzrə) (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi);

4.1.4. çətin həyat şəraitində olan uşaqlı ailələrin sayı və faizlə nisbəti (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları);

4.1.5. çətin həyat şəraitində olan uşaqlara (kateqoriyalar üzrə) və onların ailələrinə göstərilən sosial xidmətlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları);

4.1.6. əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyası ilə bağlı tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

4.1.7. çətin həyat şəraitində olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə monitorinq və qiymətləndirmənin aparılması (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

4.1.8. çətin həyat şəraitində olan uşaqlara sosial xidmət göstərən kadrların hazırlanması və onların peşəkarlığının artırılması (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

4.1.9. aşağıdakı qaydada qruplaşdırmaqla, əlilliyi olan uşaqların sayı və ölkə üzrə uşaqların ümumi sayında onların faizlə nisbətini göstərən məlumatların təqdim edilməsi:

4.1.9.1. sosial xidmət müəssisələrində yaşayan uşaqlar (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları);

4.1.9.2. ümumi təhsil müəssisələrində təhsil alanlar (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

4.1.10. əlilliyi olan uşaqların və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların cəmiyyətdə stiqmatizasiyaya məruz qalmasına, dezadaptasiya və deprivasiya vəziyyətində olmasına və onların cəmiyyət tərəfindən qəbul edilməməsinə qarşı mübarizə məqsədilə tədbirlərin həyata keçirilməsi (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

4.1.11. əlilliyi olan uşaqların reabilitasiya vasitələri və xidmətlərlə təmin edilməsi (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

4.1.12. yaşı 18-dən az olan şəxslərin əməyindən istifadə olunarkən Azərbaycan Respublikası əmək qanunvericiliyinin tələblərinə riayət edilməsi üzrə nəzarət tədbirləri (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

4.1.13. şəhid uşaqlarının və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin uşaqlarının sosial müdafiəsi sahəsində həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları).

## 5. Uşaq hüquqlarının həyata keçirilməsinin alternativ qayğı sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar

5.1. Uşaq hüquqlarının həyata keçirilməsinin alternativ qayğı sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar aşağıdakılardır:

5.1.1. alternativ qayğı ilə bağlı qanunvericiliyin BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasına uyğunlaşdırılması üzrə görülən tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

5.1.2. uşaqların valideyn himayəsindən məhrum olma səbəblərinin müəyyən edilməsi, təhlili və aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

5.1.3. valideyn himayəsindən məhrum olmuş uşaqların sosial xidmət müəssisələrindən bioloji ailələrinə qaytarılması istiqamətində tədbirlərin görülməsi, qaytarılmış uşaqların sayı və faizlə nisbəti (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

5.1.4. sosial xidmət müəssisələrində yaşayan uşaqlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması üzrə həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları);

5.1.5. sosial xidmət müəssisələrində yaşayan uşaqların peşə, orta ixtisas və ali təhsil müəssisələrinə qəbul göstəriciləri (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

5.1.6. sosial xidmət müəssisələrində yaşayan uşaqların adlarına bank hesablarının açılması və onlara təyin olunmuş sosial müavinət, aliment və digər ödənişlərin həmin bank hesablarına köçürülməsinin təmin edilməsi istiqamətində görülmüş tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları);

5.1.7. sosial xidmət müəssisələrinin məzunlarının müstəqil həyata hazırlanmasına yardım məqsədilə görülən tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları);

5.1.8. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar barədə aşağıdakı məlumatların toplanılması və təhlili:

5.1.8.1. regionlar üzrə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulan sosial xidmət müəssisələrinin və belə

müəssisələrdəki yerlərin sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

5.1.8.2. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulan sosial xidmət müəssisələrinin xidmətlərindən yararlanan uşaqların müəssisələr üzrə sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

5.1.8.3. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulan sosial xidmət müəssisələrində yaşayan uşaqların sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi);

5.1.8.4. qəyyumluğa və himayəyə verilmiş uşaqların sayı (uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

5.1.8.5. himayədar ailəyə verilmiş uşaqların sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

5.1.8.6. övladlığa, o cümlədən əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən övladlığa götürülmüş uşaqların sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

5.1.8.7. qəyyumluğun (himayənin), himayədar ailəyə verilmənin və övladlığa götürmənin ləğv edildiyi uşaqların sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

5.1.9. qəyyumluğa (himayəyə), himayədar ailəyə verilmiş və övladlığa götürülmüş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların ailədəki vəziyyəti, əqli, fiziki və psixoloji inkişaf səviyyəsinin yoxlanılması istiqamətində tədbirlərin görülməsi (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

5.1.10. övladlığa götürmənin ləğv edilməsi nəticəsində sosial xidmət müəssisəsinə geri qaytarılmış uşaqların sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

5.1.11. "himayədar ailə" institutunun inkişafı istiqamətində görülən tədbirlər, himayədar ailələrin sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

5.1.12. penitensiar müəssisədə cəza çəkməkdən azad edilmiş yetkinlik yaşına çatmayanların sosial adaptasiyası üzrə həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

5.1.13. tərbiyə müəssisəsindən, açıq və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsindən buraxılmış və əmək və məişət şəraitinin yaradılmasında yardım göstərilmiş yetkinlik yaşına çatmayanların sayı (uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar).

## 6. Uşaq hüquqlarının həyata keçirilməsinin uşaqların təhlükəsizliyinin təmini sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar

6.1. Uşaq hüquqlarının həyata keçirilməsinin uşaqların təhlükəsizliyinin təmini sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar aşağıdakılardır:

6.1.1. uşaqların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qanunvericiliyin BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasına uyğunlaşdırılması üzrə görülən tədbirlər (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar (bundan sonra – uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti üzrə dövlət orqanları (qurumları), Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, yerli icra hakimiyyəti orqanları);

6.1.2. yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası istiqamətində həyata keçirilən tədbirlər (uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti üzrə dövlət orqanları (qurumları);

6.1.3. uşaq qaynar xətt xidmətləri (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi);

6.1.4. il ərzində uşaq hüquqlarının pozulması ilə bağlı dövlət orqanlarına (qurumlara) edilən müraciətlərin sayı (uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti üzrə dövlət orqanları (qurumları), Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, yerli icra hakimiyyəti orqanları);

6.1.5. yetkinlik yaşına çatmayanları cinayətkar fəaliyyətə, fahişəliyə, pornoqrafiya tamaşalarında iştirak etməyə və ya digər əxlaqsız əməllərə cəlb edən şəxslərin aşkar edilməsinə dair məlumat (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

6.1.6. yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən valideynlərin və digər qanuni nümayəndələrin, vəzifəli şəxslərin aşkar edilməsinə dair məlumat (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

6.1.7. yetkinlik yaşına çatmayanların zorakılıq və istismar hallarından müdafiəsi üçün həyata keçirilən tədbirlər (uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti üzrə dövlət orqanları (qurumları), yerli icra hakimiyyəti orqanları);

6.1.8. məişət zorakılığına məruz qalmış uşaqların hüquqlarının müdafiəsi üzrə tədbirlər (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları);

6.1.9. hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmayanlar barəsində, habelə onların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən, onların tərbiyəsinə mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr, yaxud vəzifəli şəxslər barəsində Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş təsir tədbirlərinin tətbiq edilməsi haqqında müvafiq dövlət orqanlarına verilmiş təkliflərin sayı və qısa məzmunu (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

6.1.10. uşaqlara qarşı və onlar tərəfindən törədilən hüquqpozmaların təhlili (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

6.1.11. baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqlar üçün sosial reabilitasiya müəssisələrinin fəaliyyəti, bu müəssisələrdən yararlanan uşaqların sayı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

6.1.12. uşaq əməyinin istismarının qarşısının alınması sahəsində həyata keçirilən hüquqi, sosial və qabaqlayıcı tədbirlər (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

6.1.13. cinsi istismarın və cinsi zorakılığın qurbanı olan uşaqların hüquqlarının müdafiəsi istiqamətində tədbirlərin təşkili (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

6.1.14. cinsi istismar və ya cinsi zorakılığa məruz qalmış uşaqlarla işləyən mütəxəssislərin hazırlanması (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi);

6.1.15. doğumun qeydiyyatı, doğumu qeydiyyata alınan 5 yaşadək uşaqların sayı və uşaqların ümumi sayında faizlə nisbəti (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi);

6.1.16. uşaq alverinin qarşısının alınması sahəsində həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

6.1.17. küçə həyatı yaşayan uşaqların sayı və onların hüquqlarının müdafiəsi üzrə həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);

6.1.18. baxımsız vəziyyətdə olan və küçə həyatı yaşayan uşaqlara dair müşahidələrin aparılması və nəticələrin təhlili (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi);

6.1.19. uşaqların zərərli informasiyadan qorunması sahəsində həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Audiovizual Şurası);

6.1.20. silahlı münaqişələrin təsirinə məruz qalmış uşaqların müdafiəsi və reabilitasiyası üzrə görülən tədbirlər (uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti üzrə dövlət orqanları (qurumları);

6.1.21. erkən evlilik hallarının qarşısının alınması üzrə görülən tədbirlər (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi);

6.1.22. erkən evlilik hallarının regionlar üzrə tədqiqi (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları);

6.1.23. uşaq intiharları ilə bağlı məlumatlar (cins, yaş, ailə vəziyyəti, ərazi və intiharın səbəbləri üzrə) (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

6.1.24. uşaq intiharlarının qarşısının alınması istiqamətində tədbirlərin həyata keçirilməsi (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan

Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

6.1.25. uşaqların iştirakı ilə baş verən qəzaların qarşısının alınması, yol hərəkəti təhlükəsizliyinin artırılması məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi (Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

6.1.26. uşaqların iştirakı ilə baş verən qəzalara, o cümlədən yol-nəqliyyat hadisələrinə dair məlumatların (cins, yaş və ərazi üzrə) təhlili (Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

6.1.27. sağlamlığı və ya həyatı birbaşa təhlükədə olan və valideynlərdən (onların birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq alınan uşaqların sayı və cins tərkibi (uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar).

## 7. Uşaq hüquqlarının həyata keçirilməsinin cinayət törətmiş uşaqların islah olunması sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar

7.1. Uşaq hüquqlarının həyata keçirilməsinin cinayət törətmiş uşaqların islah olunması sahəsində təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar aşağıdakılardır:

7.1.1. ədalət mühakiməsi ilə bağlı qanunvericiliyin BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasına uyğunlaşdırılması üzrə görülən tədbirlər (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

7.1.2. cinayət törətmiş (o cümlədən təkrar) və cinayətdən zərər çəkmiş yetkinlik yaşına çatmayanlar barədə cinayətlərin təsnifatı üzrə, yetkinlik yaşına çatmayanlara tətbiq edilən cəza və tərbiyəvi xarakterli məcburi tədbirlərin növləri üzrə təhlilin aparılması (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

7.1.3. hakimlər, prokurorlar, polis əməkdaşları, icra və probasiya əməkdaşları və vəkillərin uşaqlarla iş sahəsində təlimləndirilməsi üzrə həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

7.1.4. yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş müvəqqəti saxlama yerləri və xüsusi təlim-tərbiyə müəssisələrinin yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisələrinin əməkdaşlarının uşaqlarla davranış mövzusunda təlimləndirilməsi üzrə həyata keçirilən tədbirlər (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi);

7.1.5. istintaq təcridxanalarında saxlanılan yetkinlik yaşına çatmayanların sayı və onların həmin yerlərdə saxlanıldığı orta müddət (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

7.1.6. tərbiyə müəssisələrində cəza çəkən yetkinlik yaşına çatmayanların sayı və onların həmin yerlərdə qaldığı orta müddət (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi);

7.1.7. yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş müvəqqəti saxlanma yerlərində və tərbiyə müəssisələrində xidmətin keyfiyyətinə nəzarət tədbirlərinin nəticələri

(Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

7.1.8. yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş müvəqqəti saxlanma yerlərində və tərbiyə müəssisələrində yetkinlik yaşına çatmayanlara qarşı törədilən və qeydə alınmış zorakılıq və pis rəftar halları (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi);

7.1.9. açıq tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərilən yetkinlik yaşına çatmayanların sayı və cins tərkibi (uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar);

7.1.10. ağır və ya xüsusilə ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanların sayı və cins tərkibi, onların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə məhkəmə qarşısında qaldırılan vəsatətlərin sayı (uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar).

______________________________________